# Masallının kənd və qəsəbələri ilbəil abadlaşır





***Son illər Masallıda geniş quruculuq işləri həyata keçirilir, sosial yönümlü bir sıra dövlət layihələri icra olunur. Abadlıq yürüşü rayonun qəsəbə və kəndlərini, hətta ucqar yaşayış məntəqələrini əhatə edir. Ötən ildə yollar genişləndirilib, işıqlandırılıb, zəruri ictimai və inzibati binalar inşa olunub. Sosial infrastruktur genişlənir, sakinlərin qaldırdığı məsələlər əksərən həll edilir.***

İnzibati ərazi dairələri üzrə nümayəndəliklərdə keçirilən hesabat yığıncaqlarında bu barədə ətraflı danışılıb və qarşıda duran məsələlər müzakirə olunub. İcra hakimiyyətinin başçısı Rafil Hüseynovun da iştirak etdiyi Masallı şəhər, Ərkivan və Boradigah qəsəbə, Bədələn, Şərəfə, Təzə Alvadı və Yeddioymaq kənd ərazi dairələrində hesabatlar əhatəliliyi ilə seçilib. Uğurlar sərf-nəzər edilib, çatışmazlıqlar diqqətə çatdırılıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sentyabrda Masallı rayonuna səfər etməsi yığıncaqlarda iftixarla xatırlanıb. Qeyd olunub ki, dövlətimizin başçısı rayon mərkəzində yerləşən Bayraq meydanı və Azərbaycan Dövlət rəmzləri muzeyinin, “Asan həyat” kompleksinin, Uşaq incəsənət məktəbinin, Tarix-diyarşünaslıq muzeyinin və eləcə də şəhərin içməli su verilişinin açılışını etmiş, rayon ərazisində aparılan abadlıq-quruculuq işlərini yüksək qiymətləndirmişdir. Masallıda su və kanalizasiya xətlərinin çəkilməsi, Viləş Park-Bulvar kompleksinin tikilməsi də yaddaqalan işlərdəndir. Bütün bunlara görə sakinlər adından cənab İlham Əliyevə minnətdarlıq duyğuları ifadə olunub.

Şəhər üzrə nümayəndə Kamal Mazanov bildirib ki, ərazidə fəaliyyət göstərən bələdiyyə və dövlət qurumları ilə qarşılıqlı fəaliyyət yetərincə təmin edilib. Geniş abadlıq-quruculuq işləri aparılıb, qanunsuz tikililərin qarşısı alınıb, hərbi xidmətə çağırış üzrə tapşırıqlar yerinə yetirilib və s. Vətəndaşlardan, eləcə də idarə, təşkilat və müəssisələrdən daxil olan müraciətlərlə bağlı zəruri addımlar atılıb. KTN-nin inzibati laboratoriyasının və DİN rayonlararası mühafizə bölməsinin inzibati binaları tikilərək istifadəyə verilib. Yeni tikilən iki uşaq bağçası da istifadəyə tam hazırdır. Şəhər ərazisində kanalizasiya xətlərinin çəkilişi ilə əlaqədar son tamamlama işləri aparılır. İsgəndərli dairəsi sökülərək milli memarlıq üslubunda tərtib olunmuş layihə əsasında yenidən inşa edilib.

Yeddioymaq inzibati ərazi dairəsi üzrə nümayəndəliyin hesabatında aqrar sahənin inkişaf etdiyi vurğulanıb. Buradakı xüsusi təsərrüfatlarda iribuynuzlu mal-qaranın sayi 2140 baş, xırdabuynuzlu mal-qaranın sayı isə 2475 baş olub ki, bu da əvvəlki illərə nisbətdə artım deməkdir. Ərazidə məhsul üçün yararlı olan 850 hektar sahədən 595 hektarında buğda və arpa əkilib, 100 hektara yaxın tərəvəz əkini aparılıb. Ərazidə qaz xətti çəkilir, kəndarası yollar təmir edilir. Qayğılar yararsız elektrik və rabitə dirəklərinin dəyişdirilməsi, kənd təsərrüfatı üzrə yeni əkin strukturunun yaradılması, torpaqların qanunsuz zəbt edilməsinin dayandırılması, Qasımlı kənd məktəbi üçün yeni binanın tikilməsi və digər məsələlərlə bağlıdır.

Bədələn inzibati ərazi dairəsi Bədələn, Dəmirçi, Aşurlu və Çayqıraq kəndlərini əhatə edir. Əhalisinin sayı 8436 nəfər, təsərrüfatların sayı 1935-dir. Ötən il Çayqıraq kənd ümumi orta məktəbi üçün 140 yerlik yeni bina tikilərək istifadəyə verilib. Ali məktəb və kolleclərə daxil olan məzunlar arasında qızların sayının artması fərəhlidir. Şəhid ailələri, Qarabağ əlilləri, aztəminatlı, kimsəsiz və imkansız ailələr daim diqqət mərkəzindədir. Ərazidə əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Son illərdə kənddə arıçılığa da maraq artıb: hazırda 16 fərdi təsərrüfatda arı ailələri saxlanılır. Masallı rəhbərliyinin təşəbbüsü ilə rayonda 2017-ci ildə 1000 hektar ərazidə yaşıl çay plantasiyasının salınması Bədələnda da maraqla qarşılanıb. Bundan ötrü 100 hektar sahə ayrılıb.

Şərəfədə vətəndaş müraciətlərinə həssaslıqla yanaşılır. Camaatın təklif və xahişlərinə əsasən xeyli iş görülüb. Kəndin əksər küçələrində səliqə-sahman, qayda yaradılıb, məişət tullantısı qutularının vaxtında daşınması həllini tapıb. “İpək yolu”nda keçid bərpa olunub. Kənddə yerləşən bankomat daimi işlək vəziyyətə gətirilib.

Təzə Alvadı inzibati ərazi dairəsi 3 kəndi əhatə edir. Təsərrüfatlarinın sayı 2500-dür. İl ərzində 800 hektar sahədə buğda və vələmir, 152 hektarda kartof əkilib, məhsul vaxtında və itkisiz tədarük edilib. 35 ton tərəvəz, 34 ton paxlalı bitkilər götürülüb, 35 hektardan xeyli çiyələk yığılıb. Abadlıq işləri genişlənib. Milli Qəhrəman Elşad Əhədovun xatirə kompleksində bələdiyyə ilə birgə daxili imkanlar hesabına təmir aparılıb, ərazi hasara salınıb. AZKİL layihəsi ilə üç kəndi birləşdirən yolun 8,7 kilometrinə çınqıl döşənib. Bu il kəndarası yolların bərpası, elektrik dirəklərinin yenilənməsi, Təzə Alvadıda çay üzərindəki piyada körpüsünün təmiri kimi məsələlərin həlli gündəmdədir. Təzə Alvadı 2 saylı və Meşəkənarı kənd məktəblərinin binaları yararsız olduğundan yeni binaların inşasına ciddi ehtiyac var.

Yığıncaqlarda çıxış edən rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov bildirib ki, görülən işlər təqdirəlayiqdir, amma qarşıda daha mühüm vəzifələr durur. Bütün qüvvələr səfərbərliyə alınmalı və əhalinin rifah halının daha da yaxşılaşmasına yönəldilməlidir.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***